# Vergitutma bazasının aşınması və mənfəətin köçürülməsinin qarşısının alınması məqsədilə Vergi Sazişi üzrə tədbirlərin həyata keçirilməsinə dair Çoxtərəfli Konvensiyanın
# və
# Azərbaycan Respublikası Hökuməti və San Marino Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında Konvensiyanın sintezləşdirilmiş mətni

## Sintezləşdirilmiş mətn sənədi ilə bağlı ümumi müddəalar

Bu sənəd Azərbaycan Respublikası Hökuməti və San Marino Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında 8 sentyabr 2015-ci il tarixində imzalanmış Konvensiyanın ("Konvensiya") və 20 noyabr 2023-cü ildə Azərbaycan Respublikası (Azərbaycan) tərəfindən və 7 iyun 2017-ci il tarixində San Marino Respublikası (San Marino) tərəfindən imzalanan "Vergitutma bazasının aşınması və mənfəətin köçürülməsinin qarşısının alınması məqsədilə Vergi Sazişi üzrə tədbirlərin həyata keçirilməsinə dair Çoxtərəfli Konvensiya (MLI) tərəfindən dəyişdirilmiş sintezləşdirilmiş mətni özündə əks etdirir.

Sənəd, Azərbaycan tərəfindən 24 sentyabr 2024-cü il tarixində ratifikasiya zamanı Depozitariyə təqdim edilmiş MLI mövqeyi və San Marino tərəfindən 11 mart 2020-ci il tarixində ratifikasiya zamanı Depozitariyə təqdim edilmiş MLI mövqeyi əsasında hazırlanmışdır. Bu MLI mövqeləri MLI-da nəzərdə tutulmuş dəyişikliklərə məruz qala bilər. MLI mövqelərində edilən dəyişikliklər, MLI-ın bu Konvensiyaya təsirlərini dəyişdirə bilər.

Konvensiyanın və MLI-ın orijinal hüquqi mətnləri üstünlük təşkil edir və tətbiq olunan hüquqi mətnlər olaraq qalır.

Konvensiyanın müddəalarına münasibətdə tətbiq olunan MLI müddəaları, bu sənədin mətnində Konvensiyanın müvafiq müddəaları kontekstində qutular şəklində daxil edilmişdir. MLI müddəalarını əks etdirən qutular əsasən 2017-ci il OECD Model Vergi Konvensiyasının müddəalarının ardıcıllığına uyğun olaraq yerləşdirilmişdir.

MLI müddəalarının mətnində dəyişikliklər, MLI-da istifadə olunan terminologiyanı Konvensiyada istifadə olunan terminologiyaya uyğunlaşdırılması üçün (məsələn "Əhatə Olunan Vergi Sazişi" və "Konvensiya", "Razılığa gələn Yurisdiksiyalar" və "Razılığa gələn Dövlətlər") və MLI müddəalarının başa düşülməsini asanlaşdırmaq məqsədilə edilmişdir. Terminologiyadakı dəyişikliklər sənədin aydın oxunuşunun artırılması məqsədi ilə nəzərdə tutulmuşdur və MLI müddəalarının mahiyyətini dəyişdirilməsi məqsədini daşımır. Eyni zamanda, Konvensiyanın mövcud müddəalarını təsvir edən MLI müddəalarının hissələrinə də dəyişikliklər edilmişdir: təsviri dil, mətnin aydın oxunuşunun asanlaşdırılması üçün mövcud müddəaların hüquqi istinadları ilə əvəz olunmuşdur.

Bütün hallarda, Konvensiyanın müddəalarına və ya Konvensiyaya edilmiş istinadlar, MLI müddəalarının qüvvəyə mindiyi təqdirdə, MLI-ın müddəaları ilə dəyişdirilmiş Konvensiyaya istinad olaraq başa düşülməlidir.

İstinadlar

MLI-ın orijinal ingilis dilində olan hüquqi mətni MLI Depozitariyasının (OECD) veb səhifəsində yerləşdirilib:

http://www.oecd.org/tax/treaties/multilateral-convention-to-implement-tax-treaty-related-measures-to-prevent-BEPS.pdf; və

Konvensiyanın orijinal hüquqi mətni aşağıdakı linkdə yerləşdirilib:

https://www.taxes.gov.az/en/page/ikiqat-vergitutmanin-aradan-qaldirilmasina-dair-beynelxalq-sazisler

Azərbaycanın 24 sentyabr 2024-cü il tarixində ratifikasiya zamanı Depozitariyaya təqdim etdiyi MLI mövqeyi və San Marinonun 11 mart 2020-ci il tarixində ratifikasiya zamanı Depozitariyə təqdim edilmiş MLI mövqeyi MLI Depozitariyasının (OECD) veb səhifəsində yerləşdirilib.

**MLI müddəalarının qüvvəyə minməsi ilə bağlı ümumi müddəalar**

MLI-ın bu Konvensiyaya tətbiq olunan müddəaları, Konvensiyanın orijinal müddəaları ilə eyni tarixdə qüvvəyə minmir. MLI-ın hər bir müddəası fərqli tarixlərdə qüvvəyə minə bilər, bu tətbiq olunan vergilərin növündən (ödəmə mənbəyində tutulmuş vergilər və ya digər vergilər) və Azərbaycanla San Marinonun MLI mövqelərində etdikləri seçimlərdən asılıdır.

Ratifikasiya alətlərinin depoziti tarixləri: Azərbaycan üçün 24 sentyabr 2024-cü il və San Marino üçün 11 mart 2020-ci il.

MLI-ın qüvvəyə minmə tarixi: Azərbaycan üçün 1 yanvar 2025-ci il və San Marino üçün 1 iyul 2020-ci il.

Bu sənəddə başqa cür nəzərdə tutulmamışdırsa, MLI-ın müddəaları Konvensiyaya aşağıdakı şəkildə tətbiq edilir:

Azərbaycan münasibətdə

- qeyri-rezidentlərə aparılan ödənişlərə və ya hesablanan məbləğlərə görə ödəmə mənbəyində tutulmuş vergilərə münasibətdə, belə vergilərin yaranmasına səbəb olan hadisənin 1 yanvar 2025-ci il tarixində və ya ondan sonrakı tarixdə baş verdiyi təqdirdə;

- bütün digər vergilərə münasibətdə, 1 iyul 2025-ci il tarixində və ya ondan sonra başlayan vergi dövrləri ilə bağlı tutulan vergilər üçün.

San Marino münasibətdə

- qeyri-rezidentlərə aparılan ödənişlərə və ya hesablanan məbləğlərə görə ödəmə mənbəyində tutulmuş vergilərə münasibətdə, belə vergilərin yaranmasına səbəb olan hadisənin 1 yanvar 2025-ci il tarixində və ya ondan sonrakı tarixdə baş verdiyi təqdirdə;

- bütün digər vergilərə münasibətdə, 1 yanvar 2026-cı il tarixində və ya ondan sonra başlayan vergi dövrləri ilə bağlı tutulan vergilər üçün.

**AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ**
**VƏ**
**SAN MARİNO RESPUBLİKASI HÖKUMƏTİ**
**ARASINDA**

# GƏLİRLƏRƏ VƏ ƏMLAKA GÖRƏ VERGİLƏRƏ MÜNASİBƏTDƏ İKİQAT VERGİTUTMANIN ARADAN QALDIRILMASI HAQQINDA

# KONVENSİYA

Azərbaycan Respublikası Hökuməti və San Marino Respublikası Hökuməti

***[MLI-nin 6-cı maddəsinin 1-ci bəndi ilə ƏVƏZ EDİLMİŞDİR]***

**[**gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında Konvensiya bağlamaq və daha geniş əməkdaşlıq çərçivəsində iki ölkə arasında iqtisadi əlaqələrin nizamlı şəkildə inkişafını gücləndirmək məqsədi ilə**]**

> ***Aşağıda göstərilən MLI-ın 6-cı maddəsinin 1-ci bəndi bu Konvensiyanın preambulasına əlavə edilir:***
>
> **MLI-ın 6-CI MADDƏSİ - ƏHATƏ OLUNAN VERGİ SAZİŞİNİN MƏQSƏDİ**
>
> **"Vergidən yayınma və ya boyun qaçırma yolu ilə vergidən azadolma və ya güzəştli vergi imkanı yaratmadan bu Konvensiyanın əhatə etdiyi vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması məqsədilə (o cümlədən üçüncü yurisdiksiyaların rezidentlərinin dolayı fayda əldə etməsi üçün bu Konvensiyada nəzərdə tutulan vergi güzəştlərinin əldə edilməsinə yönəldilmiş vergi güzəştlərindən sui-istifadə hallarının aradan qaldırılması ("treaty-shopping") vasitəsilə)**

aşağıdakılar barədə razılığa gəldilər:

## Maddə 1
## KONVENSİYANIN TƏTBİQ EDİLDİYİ ŞƏXSLƏR

Bu Konvensiya, Razılığa gələn Dövlətlərdən birinin və ya hər ikisinin rezidenti olan şəxslərə tətbiq edilir.

## Maddə 2
## KONVENSİYANIN TƏTBİQ EDİLDİYİ VERGİLƏR

1. Bu Konvensiya, vergitutma üsulundan asılı olmayaraq, Razılığa gələn Dövlət və ya onun siyasi yaxud inzibati-ərazi bölmələri və ya yerli hakimiyyət orqanları tərəfindən gəlirlərə və əmlaka görə tutulan vergilərə tətbiq edilir.

2. Gəlirlərə və əmlaka görə vergilərə - gəlirin ümumi məbləğindən, əmlakın ümumi dəyərindən və ya gəlirin və ya əmlakın elementlərindən, o cümlədən, daşınan və ya daşınmaz əmlakın özgəninkiləşdirilməsindən əldə edilən gəlirlərdən, müəssisələr tərəfindən ödənilən əmək haqqı və ya maaşların ümumi məbləğlərindən, həmçinin əmlakın dəyərinin artımından tutulan bütün vergilər aiddir.

3. Konvensiyanın tətbiq edildiyi mövcud vergilər xüsusilə aşağıdakılardır:

(a) San Marino Respublikasında:

aşağıdakılardan tutulan ümumi gəlir vergisi:
(i) fiziki şəxslərdən;
(ii) korporativ qurumlardan və fərdi sahibkarlardan;
(bundan sonra "San Marino vergisi" adlanır).

(b) Azərbaycan Respublikasında:

(i) hüquqi şəxslərin mənfəət vergisi;
(ii) fiziki şəxslərin gəlir vergisi;
(iii) əmlak vergisi; və
(iv) torpaq vergisi
(bundan sonra "Azərbaycan vergisi" adlanır);

4. Bu Konvensiya, həmçinin, onun imzalandığı tarixdən sonra mövcud vergilərə əlavə olaraq və ya həmin vergilərin əvəzinə tətbiq edilən istənilən eyni və ya mahiyyətcə oxşar vergilərə də tətbiq edilir. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları öz vergi qanunvericiliklərində baş verən hər bir əhəmiyyətli dəyişiklik barədə bir-birini xəbərdar edirlər.

**Maddə 3**
**ÜMUMİ ANLAYIŞLAR**

1. Kontekst başqa cür tələb etmirsə, bu Konvensiyanın məqsədləri üçün:

(a) "San Marino" termini - beynəlxalq hüquqa müvafiq olaraq San Marino Respublikasının suveren hüquqlarını və yurisdiksiyasını həyata keçirdiyi istənilən digər ərazi də daxil olmaqla, San Marino Respublikasının ərazisini bildirir;

(b) "Azərbaycan" termini - Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına məxsus olan sektoru və Azərbaycan Respublikasının üzərindəki hava məkanı da daxil olmaqla, yerin təki, dənizin dibi və təbii sərvətlərə münasibətdə Azərbaycan Respublikasının suveren hüquqlarının və yurisdiksiyasının tətbiq edildiyi Azərbaycan Respublikası ərazisini, habelə, beynəlxalq hüquqa və Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq müəyyən edilmiş və gələcəkdə müəyyən edilə bilən istənilən digər ərazini bildirir;

(c) "Razılığa gələn Dövlət" və "Razılığa gələn digər Dövlət" terminləri - kontekstdən asılı olaraq Azərbaycanı və ya San Marinonu bildirir;

(d) "şəxs" termini - fiziki şəxsi, şirkəti və şəxslərin hər hansı digər birliklərini bildirir;

(e) “şirkət” termini - Razılığa gələn Dövlətin rezidenti olan hər hansı korporativ qurumu və ya vergi məqsədləri üçün korporativ qurum kimi baxılan hər hansı təşkilatı bildirir;

(f) “Razılığa gələn Dövlətin müəssisəsi” və “Razılığa gələn digər Dövlətin müəssisəsi” terminləri - müvafiq olaraq, Razılığa gələn Dövlətin rezidenti olan müəssisəni və Razılığa gələn digər Dövlətin rezidenti olan müəssisəni bildirir;

(g) “beynəlxalq daşıma” termini - Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən istismar edilən dəniz və ya hava gəmiləri vasitəsilə yerinə yetirilən istənilən daşımaları (dəniz və ya hava gəmisinin müstəsna olaraq Razılığa gələn digər Dövlətin məntəqələri arasında istismar edilməsi halları istisna olmaqla) bildirir;

(h) “milli şəxs” termini Razılığa gələn Dövlətə münasibətdə aşağıdakıları bildirir:

(i) Razılığa gələn Dövlətin vətəndaşı olan istənilən fiziki şəxsi;
(ii) özünün müvafiq statusunu Razılığa gələn Dövlətdə qüvvədə olan qanunvericiliyə müvafiq olaraq almış istənilən hüquqi şəxsi, tərəfdaşlığı və ya assosiasiyanı.

(i) “səlahiyyətli orqan” termini aşağıdakıları bildirir:

(i) San Marinoda - Maliyyə Nazirliyini;
(ii) Azərbaycanda - Maliyyə Nazirliyi və Vergilər Nazirliyini.

2. Razılığa gələn Dövlət tərəfindən bu Konvensiyanın istənilən vaxt tətbiqi zamanı, bu Konvensiyada müəyyən edilməmiş hər hansı termin, kontekst başqa cür tələb etmirsə, Konvensiyanın tətbiq edildiyi vergilərə münasibətdə həmin vaxt həmin Dövlətin qanunvericiliyində nəzərdə tutulmuş mənaya malikdir və bu terminin həmin Dövlətin qüvvədə olan vergi qanunvericiliyində nəzərdə tutulmuş mənası, bu terminin həmin Dövlətin digər qanunlarında nəzərdə tutulmuş mənası üzərində üstünlük təşkil edir.

## Maddə 4
## REZİDENT

1. Bu Konvensiyanın məqsədləri üçün “Razılığa gələn Dövlətin rezidenti” termini həmin Dövlətin qanunvericiliyinə müvafiq olaraq yaşayış yerinə, daimi olduğu yerə, qeydiyyat yerinə, idarəetmə yerinə və ya oxşar xarakterli hər hansı digər meyara əsasən həmin dövlətdə vergiyə cəlb edilməli olan istənilən şəxsi bildirir, həmçinin, həmin Dövləti və onun hər hansı siyasi yaxud inzibati-ərazi bölməsi və ya yerli hakimiyyət orqanını da əhatə edir. Bununla belə, bu termin, yalnız həmin Dövlətdəki mənbələrdən gəlirlərə və ya orada yerləşən əmlaka münasibətdə orada vergiyə cəlb edilməli olan hər hansı şəxsi əhatə etmir.

2. Əgər, 1-ci bəndin müddəalarına müvafiq olaraq, fiziki şəxs Razılığa gələn Dövlətlərdən hər ikisinin rezidentidirsə, bu halda onun statusu aşağıdakı qaydada müəyyən edilir:

(a) o, yalnız daimi yaşayış yerinə malik olduğu Dövlətin rezidenti hesab edilir; əgər onun hər iki Dövlətdə daimi yaşayış yeri vardırsa, o, yalnız şəxsi və iqtisadi əlaqələrinin daha sıx olduğu (həyati mənafelərin mərkəzi) Dövlətin rezidenti hesab edilir;

(b) əgər, onun həyati mənafelərinin mərkəzinin yerləşdiyi Dövləti müəyyən etmək mümkün deyildirsə və ya onun bu Dövlətlərdən heç birində daimi yaşayış yeri yoxdursa, bu halda o, yalnız adətən yaşadığı Dövlətin rezidenti hesab edilir;

(c) əgər o, adətən hər iki Dövlətdə yaşayırsa və ya onlardan heç birində yaşamırsa, o, yalnız milli şəxsi olduğu Dövlətin rezidenti hesab edilir;

(d) əgər o, hər iki Dövlətin milli şəxsidirsə və ya onlardan heç birinin milli şəxsi deyildirsə, Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları məsələni qarşılıqlı razılaşma yolu ilə həll edirlər.

3. Əgər, 1-ci bəndin müddəalarına müvafiq olaraq, fiziki şəxs olmayan şəxs Razılığa gələn Dövlətlərdən hər ikisinin rezidentidirsə, bu halda o, yalnız qeydiyyatdan keçdiyi və faktiki idarəetmə yerinin yerləşdiyi Dövlətin rezidenti hesab edilir. Əgər həmin şəxsin qeydiyyat yeri və faktiki idarəetmə yeri eyni Razılığa gələn Dövlətdə deyilsə, bu halda Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları məsələni qarşılıqlı razılaşma yolu ilə həll edir və Konvensiyanın bu cür şəxsə tətbiq edilmə formasını müəyyən edir.

## Maddə 5
## DAİMİ NÜMAYƏNDƏLİK

1. Bu Konvensiyanın məqsədləri üçün, "daimi nümayəndəlik" termini, müəssisənin sahibkarlıq fəaliyyətinin tamamilə və ya qismən həyata keçirildiyi daimi fəaliyyət yerini bildirir.

2. "Daimi nümayəndəlik" terminini xüsusilə aşağıdakılar aiddir:

(a) idarəetmə yeri;

(b) filial;

(c) ofis;

(d) fabrik;

(e) emalatxana;

(f) qurğu, tikili və ya gəmi, yaxud təbii ehtiyatların kəşfiyyatı üçün istifadə edilən hər hansı digər yer;

(g) yataq, neft və ya qaz quyusu, karxana və ya təbii ehtiyatların hasil olunduğu hər hansı digər yer.

3. "Daimi nümayəndəlik" terminini həmçinin aşağıdakılar aid edilir:

(a) Tikinti meydançası, quraşdırma, montaj və ya yığma layihəsi və ya bunlarla bağlı nəzarət və ya məsləhət fəaliyyəti - yalnız bu cür meydança, layihə və ya fəaliyyət on iki aydan artıq davam etdikdə;

(b) Məsləhət xidmətləri də daxil olmaqla, müəssisə tərəfindən öz işçiləri və ya bu cür məqsədlər üçün cəlb edilmiş digər heyət vasitəsilə xidmətlərin göstərilməsi - yalnız bu xarakterli fəaliyyət (eyni və ya əlaqəli layihə üçün) Razılığa gələn Dövlətin ərazisində istənilən on iki aylıq dövr ərzində ümumilikdə altı aydan artıq bir dövr və ya dövrlər ərzində davam etdikdə.

4. Bu maddənin əvvəlki müddəalarından asılı olmayaraq, “daimi nümayəndəlik” terminինə aşağıdakılar aid edilmir:

(a) qurğulardan müəssisəyə məxsus olan malların və ya məmulatların müstəsna olaraq saxlanılması və ya nümayiş etdirilməsi məqsədi üçün istifadə edilməsi;

(b) müəssisəyə məxsus olan mal və ya məmulat ehtiyatlarının müstəsna olaraq saxlanılma və ya nümayiş etdirilmə məqsədi üçün saxlanılması;

(c) müəssisəyə məxsus olan mal və ya məmulat ehtiyatlarının müstəsna olaraq başqa müəssisə tərəfindən emal edilmək məqsədi üçün saxlanılması;

(d) daimi sahibkarlıq fəaliyyəti yerinin müstəsna olaraq müəssisə üçün mal və ya məmulatların satın alınması və ya məlumat toplanılması məqsədi üçün saxlanılması;

(e) daimi sahibkarlıq fəaliyyəti yerinin müstəsna olaraq müəssisə üçün hazırlıq və ya yardımçı xarakterli istənilən digər fəaliyyətin göstərilməsi məqsədi üçün saxlanılması;

(f) daimi sahibkarlıq fəaliyyəti yerinin müstəsna olaraq (a) - (e) yarımbəndlərində sadalanmış fəaliyyət növlərinin istənilən kombinasiyası üçün saxlanılması - bir şərtlə ki, daimi sahibkarlıq fəaliyyəti yerinin bu kombinasiyanın nəticəsi olan məcmu fəaliyyəti hazırlıq və ya yardımçı xarakter daşısın.

***Aşağıda göstərilən MLI-ın 13-cü maddəsinin 4-cü bəndi bu Konvensiyanın 5-ci maddəsinin 4-cü bəndinə əlavə edilir:***

**MLI-ın 13-CÜ MADDƏSİ – XÜSUSİ FƏALİYYƏT İSTİSNALARI VASİTƏSİ İLƏ DAİMİ NÜMAYƏNDƏLİK STATUSUNDAN SÜNİ YAYINMA**

**Eyni müəssisə və ya onunla sıx əlaqəli müəssisə bir *[Razılığa gələn Dövlətin]* ərazisində eyni və ya fərqli yerdə sahibkarlıq fəaliyyətini həyata keçirirsə, müəssisə tərəfindən istifadə edilən və ya saxlanılan daimi sahibkarlıq yerinə münasibətdə bu *[Konvensiyanın 5-ci maddəsinin 4-cü bəndin]* müddəaları aşağıdakı hallarda tətbiq edilmir:**

**a) həmin və ya digər yer bu *[Konvensiyanın 5-ci maddəsinin]* müddəalarına uyğun olaraq müəssisə və ya onunla sıx əlaqəsi olan digər müəssisə üçün daimi nümayəndəliyin yarandığı yer hesab olunursa, və ya**

**b) iki müəssisə tərəfindən eyni yerdə və ya həmin müəssisə və ya onunla sıx əlaqəsi olan digər müəssisə tərəfindən iki yerdə müştərək fəaliyyətin**

**nəticəsi olaraq həyata keçirilən məcmu fəaliyyət hazırlıq və ya yardımçı xarakter daşımırsa,**

**o şərtlə ki, iki müəssisə tərəfindən eyni yerdə və ya həmin müəssisə və ya onunla sıx əlaqəsi olan digər müəssisə tərəfindən iki yerdə həyata keçirilən fəaliyyət onların vahid biznes prosesinin tərkib hissəsi olaraq bir-birinə münasibətdə qarşılıqlı tamamlanma funksiyası daşısın.**

5. 1-ci və 2-ci bəndlərin müddəalarından asılı olmayaraq, əgər 7-ci bəndin tətbiq edildiyi müstəqil statuslu agentdən fərqli şəxs Razılığa gələn Dövlətdə Razılığa gələn digər Dövlətin müəssisəsinin adından fəaliyyət göstərirsə, həmin müəssisə, həmin şəxsin onun üçün həyata keçirdiyi hər hansı fəaliyyətə münasibətdə adı birinci çəkilən Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə malik olan müəssisə hesab edilir, əgər bu cür şəxs:

(a) müəssisənin adından müqavilə bağlamaq səlahiyyətlərinə malikdirsə və adətən həmin Dövlətdə bu səlahiyyətlərdən istifadə edirsə, bir şərtlə ki, həmin şəxsin fəaliyyəti 4-cü bənddə göstərilmiş fəaliyyətlə məhdudlaşmasın, belə ki, həmin fəaliyyət, hətta daimi sahibkarlıq fəaliyyəti yeri vasitəsilə həyata keçirilsə belə, həmin bəndin müddəalarına əsasən bu cür daimi sahibkarlıq fəaliyyəti yerini daimi nümayəndəliyə çevirmir; və ya

(b) bu cür səlahiyyətlərə malik olmadan, adətən adı birinci çəkilən mal və ya məmulat ehtiyatları saxlayırsa və oradan müntəzəm olaraq həmin müəssisənin adından mal və ya məmulatlar çatdırırsa.

6. Bu maddənin əvvəlki müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin sığorta şirkəti Razılığa gələn digər Dövlətin ərazisində 7-ci bəndin tətbiq edildiyi müstəqil statuslu agentdən fərqli şəxs vasitəsilə sığorta haqları toplayırsa və ya orada yerləşən riskləri sığorta edirsə (təkrarsığorta istisna olmaqla), həmin digər Dövlətdə daimi nümayəndəliyə malik olan müəssisə hesab edilir.

7. Müəssisə Razılığa gələn Dövlətdə sadəcə olaraq broker, baş komisyon agenti və ya müstəqil statuslu hər hansı digər agent vasitəsilə sahibkarlıq fəaliyyətini həyata keçirdiyinə görə həmin Dövlətdə daimi nümayəndəliyə malik olan müəssisə hesab edilmir, bir şərtlə ki, bu cür şəxslər adi fəaliyyətləri çərçivəsində fəaliyyət göstərsinlər.
Bununla belə, bu cür agentin fəaliyyəti tamamilə və ya demək olar ki, tamamilə həmin müəssisə üçün həyata keçirildiyi və həmin müəssisə ilə həmin agentin kommersiya və maliyyə münasibətlərində onlar arasında yaradılmış və ya müəyyən edilmiş şərtlər müstəqil müəssisələr arasında ola biləcək şərtlərdən fərqli olduğu halda, həmin agent, bu bəndin məqsədləri üçün müstəqil statuslu agent hesab edilmir.

8. Razılığa gələn Dövlətin rezidenti olan şirkətin Razılığa gələn digər Dövlətin rezidenti olan və ya həmin digər Dövlətdə sahibkarlıq fəaliyyətini həyata keçirən (daimi nümayəndəlik vasitəsilə və ya başqa tərzdə) şirkətə nəzarət etməsi və ya onun nəzarətində olması faktı özlüyündə bu şirkətlərdən heç birini digərinin daimi nümayəndəliyinə çevirmir.

***Aşağıda göstərilən MLI-ın 15-ci maddəsinin 1-ci bəndi bu Konvensiyanın müddəalarına əlavə edilir:***

**MLI-ın 15-Cİ MADDƏSİ - MÜƏSSİSƏ ILƏ SIX ƏLAQƏLI OLAN ŞƏXSİN TƏRİFİ**

**Bütün faktları və halları nəzərə almaq şərtilə, əgər bir şəxs digər şəxsə nəzarət edirsə və ya bu şəxslərin hər ikisi eyni şəxslərin nəzarətindədirlərsə, bu [ Konvensiyanın 5-ci maddəsinin] məqsədləri üçün həmin şəxs müəssisə ilə sıx əlaqəsi olan şəxs hesab edilir. İstənilən halda əgər şəxsin digər şəxsdə faydalı iştirak payı birbaşa və ya dolayısı ilə 50 faizdən çox təşkil edirsə (və ya şirkət olduğu halda, səs hüququnun və səhmlərin dəyərinin məcmusunun və ya səhm kapitalında faydalı iştirak payının 50 faizdən çox olan hissəsini təşkil edirsə) və ya digər şəxsin yaxud müəssisənin şəxsdə və müəssisədə faydalı iştirak payı birbaşa və ya dolayısı ilə 50 faizdən çoxdursa (və ya şirkət olduğu halda, səs hüququnun və səhmlərin dəyərinin məcmusunun və ya səhm kapitalında faydalı iştirak payının 50 faizdən çox olan hissəsini təşkil edirsə) şəxs müəssisə ilə sıx əlaqəli olan şəxs hesab olunur.**

## Maddə 6
## DAŞINMAZ ƏMLAKDAN ƏLDƏ OLUNAN GƏLİRLƏR

1. Razılığa gələn Dövlətin rezidenti tərəfindən Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakdan əldə olunan gəlirlər (kənd və ya meşə təsərrüfatından gəlirlər də daxil olmaqla) həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. “Daşınmaz əmlak” termini həmin əmlakın yerləşdiyi Razılığa gələn Dövlətin qanunvericiliyinə əsasən bu terminə verilən mənaya malikdir. Bu termin istənilən halda, daşınmaz əmlaka münasibətdə yardımçı əmlakı, kənd və meşə təsərrüfatında istifadə edilən mal-qara və avadanlığı, torpaq mülkiyyəti barədə milli qanunvericiliyin müddəalarının tətbiq edildiyi hüquqları, daşınmaz əmlakın uzufruktunu və mineral ehtiyatların, mənbələrin və digər təbii resursların işlənməsi və ya işlənmə hüququ əvəzində ödənilən dəyişkən və ya təsbit edilmiş ödənişlərə olan hüquqları əhatə edir; dəniz və hava gəmiləri daşınmaz əmlak hesab edilmir.

3. 1-ci bəndin müddəaları daşınmaz əmlakın birbaşa istifadəsindən, icarəyə verilməsindən və ya digər formada istifadəsindən əldə olunan gəlirlərə tətbiq edilir.

4. 1-ci və 3-cü bəndlərin müddəaları, həmçinin, müəssisənin daşınmaz əmlakından gəlirlərə və müstəqil fərdi xidmətlərin göstərilməsi üçün istifadə edilən daşınmaz əmlakdan əldə olunan gəlirlərə də tətbiq edilir.

## Maddə 7
## SAHİBKARLIQ FƏALİYYƏTİNDƏN ƏLDƏ OLUNAN MƏNFƏƏT

1. Razılığa gələn Dövlətin müəssisəsinin mənfəəti yalnız həmin Dövlətdə vergiyə cəlb edilir, bir şərtlə ki, həmin müəssisə Razılığa gələn digər Dövlətdə sahibkarlıq fəaliyyətini orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirməsin. Əgər müəssisə sahibkarlıq fəaliyyətini yuxarıda göstərilən tərzdə həyata keçirirsə, bu halda onun mənfəətinin yalnız həmin daimi nümayəndəliyə aid edilə bilən hissəsi həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. 3-cü bəndin müddəaları nəzərə alınmaqla, əgər Razılığa gələn Dövlətin müəssisəsi Razılığa gələn digər Dövlətdə sahibkarlıq fəaliyyətini orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirirsə, Razılığa gələn Dövlətlərin hər birində bu daimi nümayəndəliyin mənfəətinə, onun eyni və ya oxşar şəraitdə, eyni və ya oxşar fəaliyyətlə məşğul olan müstəqil və ayrıca müəssisə olduğu və daimi nümayəndəliyi olduğu müəssisədən tamamilə asılı olmadan fəaliyyət göstərdiyi halda əldə edə biləcəyi mənfəət aid edilir.

3. Daimi nümayəndəliyin mənfəəti müəyyən edilərkən, daimi nümayəndəliyin yerləşdiyi Razılığa gələn Dövlətdə və ya hər hansı digər yerdə çəkilməsindən asılı olmayaraq, daimi nümayəndəliyin məqsədləri üçün çəkilmiş xərclərin, o cümlədən, idarəetmə və ümumi inzibati xərclərin həmin Dövlətin daxili qanunvericiliyi ilə müəyyən edilmiş həddə çıxılmasına yol verilir.

4. Əgər, Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə aid olan mənfəət adətən müəssisənin ümumi mənfəətinin onun ayrı-ayrı hissələri arasında bölüşdürülməsi əsasında müəyyən edilirsə, bu maddənin 2-ci bəndinin müddəaları, vergiyə cəlb edilməli olan mənfəətin bu cür bölgü vasitəsilə müəyyənləşdirilməsində Razılığa gələn Dövlətə heç bir maneə yaratmır; bununla belə, tətbiq edilən bölgü metodu elə olmalıdır ki, nəticə bu maddədə nəzərdə tutulan prinsiplərə müvafiq olsun.

5. Daimi nümayəndəlik tərəfindən sadəcə olaraq öz müəssisəsi üçün mal və ya məmulat alınmasına görə həmin daimi nümayəndəliyə heç bir mənfəət aid edilmir.

6. Əvvəlki bəndlərin məqsədləri üçün, daimi nümayəndəliyə aid edilə bilən mənfəət hər il eyni metodla müəyyən edilir, bir şərtlə ki, bunun əksi üçün tutarlı və kifayət qədər əsaslı səbəb olmasın.

7. Əgər, mənfəətə, barəsində bu Konvensiyanın digər maddələrində ayrıca söhbət açılan gəlir növləri daxildirsə, bu halda bu maddənin müddəaları həmin maddələrin müddəalarına təsir göstərmir.

## Maddə 8
## DƏNİZ VƏ HAVA NƏQLİYYATI

1. Razılığa gələn Dövlətin müəssisəsinin dəniz və ya hava gəmilərinin beynəlxalq daşımalarda istismarından əldə etdiyi mənfəət yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

2. Bu maddənin məqsədləri üçün, dəniz və ya hava gəmilərinin beynəlxalq daşımalarda istismarından əldə olunan mənfəətə həmçinin aşağıdakılar aiddir:

(a) dəniz və hava gəmilərinin qeyri-müntəzəm olaraq, beynəlxalq daşımalarda heyətsiz icarəyə verilməsindən;

(b) konteynerlərin (konteynerlərin daşınması üçün treylerlər və əlaqədar avadanlıq da daxil olmaqla) beynəlxalq daşımalarda istifadəsi, saxlanılması və ya icarəyə verilməsindən mənfəət,

əgər, bu fəaliyyət növləri dəniz və ya hava gəmilərinin beynəlxalq daşımalarda istismarına münasibətdə tamamlayıcı və ya qeyri-müntəzəm xarakter daşıyırsa.

3. Əgər dəniz nəqliyyatı müəssisəsinin faktiki idarəetmə yeri gəmi göyərtəsində yerləşirsə, bu halda həmin müəssisə, gəminin qeydiyyat limanının yerləşdiyi Razılığa gələn Dövlətdə yerləşən müəssisə yaxud qeydiyyat limanı olmadığı halda, gəmini istismar edən şəxsin rezident olduğu Dövlətdə yerləşən müəssisə hesab edilir.

4. 1-ci bəndin müddəaları həmçinin pulda (“pool”), birgə sahibkarlıq fəaliyyəti və ya beynəlxalq əməliyyat təşkilatında iştirakdan mənfəətə də tətbiq edilir.

## Maddə 9
## QARŞILIQLI ƏLAQƏLİ MÜƏSSİSƏLƏR

1. Əgər:

(a) Razılığa gələn Dövlətin müəssisəsi Razılığa gələn digər Dövlətin müəssisəsinin idarə edilməsində, ona nəzarətdə və ya onun kapitalında birbaşa və ya dolayısı ilə iştirak edirsə, və ya

(b) eyni şəxslər Razılığa gələn Dövlətin müəssisəsinin və Razılığa gələn digər Dövlətin müəssisəsinin idarə edilməsində, onlara nəzarətdə və ya onların kapitalında birbaşa və ya dolayısı ilə iştirak edirlərsə,

və hər bir halda bu iki müəssisənin qarşılıqlı kommersiya və ya maliyyə münasibətlərində onlar arasında yaradılmış və ya müəyyən edilmiş şərtlər müstəqil müəssisələr arasında mövcud ola biləcək şərtlərdən fərqlidirsə, bu halda, onlardan birinə hesablana biləcək, lakin bu şərtlər səbəbindən hesablanmamış hər hansı mənfəət, həmin müəssisənin mənfəətinə daxil edilə və müvafiq qaydada vergiyə cəlb edilə bilər.

2. Əgər, Razılığa gələn Dövlət həmin Dövlətin müəssisəsinin mənfəətinə Razılığa gələn digər Dövlətin müəssisəsinin həmin digər Dövlətdə vergiyə cəlb edilmiş mənfəətini daxil edir və müvafiq qaydada vergiyə cəlb edirsə və bu tərzdə daxil edilmiş mənfəət, bu müəssisələr arasındakı münasibətlər müstəqil müəssisələr arasında ola biləcək münasibətlər olduğu halda adı birinci çəkilən Dövlətin müəssisəsinə hesablana biləcək mənfəətdirsə, bu halda, orada bu mənfəətdən hesablanan verginin məbləğinə düzəliş edir. Bu cür düzəlişin müəyyən edilməsi zamanı bu Konvensiyanın digər müddəaları müvafiq qaydada nəzərə alınır və Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları zəruri olduqda bir-biri ilə məsləhətləşmələr aparırlar.

## Maddə 10
## DİVİDENDLƏR

1. Razılığa gələn Dövlətin rezidenti olan şirkət tərəfindən Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən dividendlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Bununla belə, bu cür dividendlər həmçinin həmin dividendləri ödəyən şirkətin rezident olduğu Razılığa gələn Dövlətdə və onun qanunvericiliyinə müvafiq qaydada da vergiyə cəlb edilə bilər, lakin dividendlərin faktiki sahibi Razılığa gələn digər Dövlətin rezidentidirsə, tutulan vergi aşağıdakılardan artıq olmamalıdır:

(a) dividendlərin ümumi məbləğinin 5 faizindən - əgər dividendlərin faktiki sahibi birbaşa dividendləri ödəyən şirkətin kapitalının 25 faizinə sahib olan və həmin şirkətin kapitalına 250.000 Avrodan az olmayan və ya bu məbləğin istənilən digər valyutada ekvivalentinə bərabər məbləğdə investisiya qoymuş şirkətdirsə (tərəfdaşlıq istisna olmaqla);

(b) dividendlərin ümumi məbləğinin 10 faizindən - bütün digər hallarda.

Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu məhdudiyyətlərin tətbiqi formasını qarşılıqlı razılaşma yolu ilə müəyyən edirlər.
Bu bənd, dividendlər ödənilən mənfəətə münasibətdə şirkətin vergiyə cəlb edilməsinə təsir etmir.

3. Bu maddədə istifadə edilən "dividendlər" termini səhmlərdən, "jouissance" səhmlərindən və ya "jouissance" hüquqlarından, dağ-mədən sənayesinin səhmlərindən, təsisçilərin səhmlərindən (paylarından) və ya borc tələbləri olmayan, mənfəətdə iştirak hüququ verən digər hüquqlardan gəlirləri, o cümlədən, gəlirləri bölüşdürən şirkətin rezident olduğu Dövlətin qanunvericiliyinə müvafiq olaraq, səhmlərdən gəlirlərin cəlb edildiyi eyni qaydada vergitutmaya cəlb edilən digər korporativ hüquqlardan əldə edilən gəlirləri bildirir.

4. 1-ci və 2-ci bəndlərin müddəaları, dividendlərin faktiki sahibinin Razılığa gələn Dövlətin rezidenti olmaqla, dividendləri ödəyən şirkətin rezident olduğu Razılığa gələn digər Dövlətdə sahibkarlıq fəaliyyətini orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirdiyi və ya orada yerləşən daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərdiyi və dividendlərin ödənilməsi ilə bağlı olan holdinqin bu cür daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəli olduğu halda tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, 7-ci və ya 14-cü maddələrin müddəaları tətbiq edilir.

5. Əgər, Razılığa gələn Dövlətin rezidenti olan şirkət Razılığa gələn digər Dövlətdən mənfəət və ya gəlir əldə edirsə, həmin digər Dövlət, hətta şirkət tərəfindən ödənilən dividendlər və ya onun bölüşdürülməmiş mənfəəti tamamilə və ya qismən həmin digər Dövlətdə yaranan mənfəət və ya gəlirdən ibarət olduğu halda belə, dividendlərin həmin digər Dövlətin rezidentinə ödənildiyi və ya dividendlərin ödənilməsi ilə bağlı olan holdinqin həmin digər Dövlətdə yerləşən daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəli olduğu hallar istisna edilməklə, nə şirkət tərəfindən ödənilən dividendlərə hər hansı vergi tətbiq edə, nə də şirkətin bölüşdürülməmiş mənfəətini şirkətin bölüşdürülməmiş mənfəəti üzrə vergiyə cəlb edə bilməz.

## Maddə 11
## FAİZLƏR

1. Razılığa gələn Dövlətdə yaranan və Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən faizlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Bununla belə, bu cür faizlər həmçinin onların yarandığı Razılığa gələn Dövlətdə və onun qanunvericiliyinə müvafiq qaydada da vergiyə cəlb edilə bilər, lakin faizlərin faktiki sahibi Razılığa gələn digər Dövlətin rezidentidirsə, tutulan vergi faizlərin ümumi məbləğinin 10 faizindən artıq olmamalıdır. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu məhdudiyyətlərin tətbiqi formasını qarşılıqlı razılaşma yolu ilə müəyyən edirlər.

3. 2-ci bəndin müddəalarından asılı olmayaraq, aşağıdakı tələblərdən istənilən biri ödənildiyi halda, Razılığa gələn Dövlətdə yaranan və Razılığa gələn digəri Dövlətin onların faktiki sahibi olan rezidentinə ödənilən faizlər yalnız Razılığa gələn digər Dövlətdə vergiyə cəlb edilir:

(i) faizlərin ödəyicisi və ya resipienti Razılığa gələn Dövlətin Hökuməti, dövlət qurumu, siyasi və ya inzibati-ərazi bölməsi və ya yerli hakimiyyət orqanı, yaxud həmin Dövlətin Mərkəzi Bankıdırsa;

(ii) faizlər Razılığa gələn Dövlətin Hökuməti, Razılığa gələn Dövlətin Mərkəzi Bankı və ya tamamilə Razılığa gələn Dövlətin Hökumətinə məxsus olan, yaxud onun tərəfindən nəzarət olunalı agentlik və ya qurum (maliyyə institutu daxil olmaqla) tərəfindən verilmiş, təsdiq edilmiş, zəmanət verilmiş və ya sığortalanmış borca münasibətdə ödənilirsə.

4. Bu maddədə istifadə edilən "faizlər" termini ipoteka təminatının olub-olmamasından və borcluların mənfəətində iştirak hüququ verib-verməməsindən asılı olmayaraq, istənilən növ borc tələblərindən gəlirləri, və xüsusilə, hökumətin qiymətli kağızlarından gəlirləri və istiqrazlardan və ya borc öhdəliklərindən gəlirləri, o cümlədən bu cür qiymətli kağızlar, istiqrazlar və ya borc öhdəlikləri üzrə mükafatlar və uduşları bildirir. Gecikdirilmiş ödənişlərə görə cərimələr bu maddənin məqsədi üçün faizlər hesab edilmir.

5. 1-3-cü bəndlərin müddəaları, faizlərin faktiki sahibinin Razılığa gələn Dövlətin rezidenti olmaqla, faizlərin yarandığı Razılığa gələn digər Dövlətdə sahibkarlıq fəaliyyətini orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirdiyi və ya orada yerləşən daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərdiyi və faizlərin ödənilməsi ilə bağlı olan borc öhdəliyinin bu cür daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəli olduğu halda tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, 7-ci və ya 14-cü maddələrin müddəaları tətbiq edilir.

6. Faizlərin ödəyicisi Razılığa gələn Dövlətin rezidenti olduğu halda, faizlər həmin Dövlətdə yaranmış hesab edilir. Bununla belə, faizləri ödəyən şəxs Razılığa gələn Dövlətin rezidenti olub-olmamasından asılı olmayaraq, Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə və ya daimi bazaya sahib olduğu və faizlər ödənilən borcun bu cür daimi nümayəndəlik və ya daimi baza ilə bağlı yarandığı və bu faizlərin ödənilməsi üzrə xərclərin bu cür daimi nümayəndəlik və ya daimi baza tərəfindən çəkildiyi halda, bu cür faizlər daimi

nümayəndəliyin və ya daimi bazanın yerləşdiyi Razılığa gələn Dövlətdə yaranmış hesab edilir.

7. Əgər, ödəyici və faktiki sahib arasında və ya onların hər ikisi ilə hər hansı digər şəxs arasındakı xüsusi münasibətlər səbəbindən, borc tələbi ilə əlaqədar ödənilən faizlərin məbləği, bu münasibətlər olmadığı halda ödəyici və faktiki sahib arasında razılaşdırıla biləcək məbləğdən artıqdırsa, bu maddənin müddəaları yalnız adı sonuncu çəkilən məbləğə tətbiq edilir. Bu halda, ödənişlərin artıq hissəsi, bu Konvensiyanın digər müddəaları müvafiq qaydada nəzərə alınmaqla, Razılığa gələn Dövlətlərdən hər birinin qanunvericiliyinə müvafiq qaydada vergiyə cəlb edilir.

## Maddə 12
## ROYALTİLƏR

1. Razılığa gələn Dövlətdə yaranan və Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən royaltilər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Bununla belə, bu cür royaltilər həmçinin onların yarandığı Razılığa gələn Dövlətdə və onun qanunvericiliyinə müvafiq qaydada da vergiyə cəlb edilə bilər, lakin royaltilərin faktiki sahibi Razılığa gələn digər Dövlətin rezidentidirsə, tutulan vergi aşağıdaklardan artıq olmamalıdır:

a) kompüter proqramları və ya hər hansı patent, ticarət markası, dizayn və ya model, plan, məxfi formula və ya prosesin istifadəsi və ya istifadə hüququnun verilməsi üçün, yaxud sənaye, kommersiya və ya elmi avadanlığın istifadəsi və ya istifadə hüququnun verilməsi üçün yaxud sənaye, kommersiya və ya elmi təcrübəyə dair informasiya görə ödənilən royalti üçün - royaltinin ümumi məbləğinin 5 faizindən;
b) bütün digər hallarda royaltinin ümumi məbləğinin 10 faizindən.

3. Bu maddədə istifadə olunan “royaltilər” termini hər hansı ədəbiyyat, incəsənət və ya elm əsərləri, o cümlədən kompüter proqramları, kinofilmlər və filmlərə yaxud radio və ya televiziya yayımı yazılarına üzrə müəlliflik hüquqlarının, hər hansı patent, ticarət markası, dizayn və ya model, plan, məxfi formula və ya prosesin istifadəsi və ya istifadə hüququ əvəzində, həmçinin sənaye, kommersiya və ya elmi avadanlığın istifadəsi və ya istifadə hüququ əvəzində, yaxud sənaye, kommersiya və ya elmi təcrübəyə dair məlumat əvəzində alınan istənilən növ ödənişləri bildirir.

4. 1 və 2-ci bəndlərin müddəaları, royaltilərin faktiki sahibinin Razılığa gələn Dövlətin rezidenti olmaqla, royaltilərin yarandığı Razılığa gələn digər Dövlətdə sahibkarlıq fəaliyyətini orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirdiyi və ya orada yerləşən daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərdiyi və royaltilərin ödənilməsi ilə bağlı olan hüquq və ya əmlakın bu cür daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəli olduğu halda tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, 7-ci və ya 14-cü maddələrin müddəaları tətbiq edilir.

5. Royaltilərin ödəyicisi Razılığa gələn Dövlətin rezidenti olduğu halda, royaltilər həmin Dövlətdə yaranmış hesab edilir. Bununla belə, royaltiləri ödəyən şəxs Razılığa gələn Dövlətin rezidenti olub-olmamasından asılı olmayaraq, Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə və ya daimi bazaya sahib olduğu və royalti ödənişinə əsas verən hüquq və

ya əmlakın bu cür daimi nümayəndəlik və ya daimi baza ilə faktiki bağlı olduğu halda, bu cür royaltilər daimi nümayəndəliyin və ya daimi bazanın yerləşdiyi Dövlətdə yaranmış hesab edilir.

6. Əgər, ödəyici və faktiki sahibi arasında və ya onların hər ikisi ilə hər hansı digər şəxs arasındakı xüsusi münasibətlər səbəbindən istifadə, hüquq və ya məlumat ilə əlaqədar ödənilən royaltilərin məbləği, bu münasibətlər olmadığı halda ödəyici və faktiki sahib arasında razılaşdırıla biləcək məbləğdən artıqdırsa, bu maddənin müddəaları yalnız adı sonuncu çəkilən məbləğə tətbiq edilir. Bu halda, ödənişlərin artıq hissəsi, bu Konvensiyanın digər müddəaları müvafiq qaydada nəzərə alınmaqla, Razılığa gələn Dövlətlərdən hər birinin qanunvericiliyinə müvafiq qaydada vergiyə cəlb edilir.

## Maddə 13
## ƏMLAKIN DƏYƏRİNİN ARTIMINDAN ƏLDƏ OLUNAN GƏLİRLƏR

1. Razılığa gələn Dövlətin rezidenti tərəfindən, 6-cı maddədə qeyd edilmiş və Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakın özgəninkiləşdirilməsindən əldə olunan gəlirlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Razılığa gələn Dövlətin rezidenti tərəfindən, aktivləri əsasən Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakla bilavasitə və ya dolayısı ilə bağlı olan şirkətdəki səhmlərin və ya digər korporativ hüquqların özgəninkiləşdirilməsindən əldə olunan gəlirlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

3. Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdə sahib olduğu daimi nümayəndəliyinin kommersiya əmlakının bir hissəsini təşkil edən daşınan əmlakın və ya Razılığa gələn Dövlətin rezidentinin müstəqil fərdi xidmətlər göstərmək məqsədi üçün Razılığa gələn digər Dövlətdə sərəncamında olan daimi bazaya aid daşınan əmlakın özgəninkiləşdirilməsindən əldə olunan gəlirlər, bu cür daimi nümayəndəliyin (ayrılıqda və ya bütün müəssisə ilə birlikdə) və ya bu cür daimi bazanın özgəninkiləşdirilməsindən əldə olunan gəlirlər də daxil olmaqla həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

4. Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən beynəlxalq daşımalarda istismar edilən dəniz və ya hava gəmilərinin və ya bu cür dəniz və ya hava gəmilərinin istismarı ilə bağlı olan daşınan əmlakın özgəninkiləşdirilməsindən əldə olunan gəlirlər yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

5. Bu maddənin əvvəlki bəndlərində qeyd edilənlər istisna edilməklə, hər hansı əmlakın özgəninkiləşdirilməsindən əldə olunan gəlirlər, yalnız əmlakı özgəninkiləşdirən şəxsin rezident olduğu Razılığa gələn Dövlətdə vergiyə cəlb edilir.

## Maddə 14
## MÜSTƏQİL FƏRDİ XİDMƏTLƏR

1. Razılığa gələn Dövlətin rezidenti tərəfindən peşəkar xidmətlərdən və ya müstəqil xarakterli digər fəaliyyətlərdən əldə edilən gəlirlər, bu cür gəlirlərin həmçinin Razılığa gələn digər Dövlətdə də vergiyə cəlb edilə biləcəyi aşağıdakı hallar istisna edilməklə, yalnız həmin Dövlətdə vergiyə cəlb edilir:

(a) Əgər o, öz fəaliyyətini həyata keçirmək məqsədi üçün Razılığa gələn digər Dövlətdə müntəzəm istifadə etdiyi daimi bazaya sahibdirsə; bu halda, gəlirin yalnız həmin daimi bazaya aid edilə bilən hissəsi Razılığa gələn digər Dövlətdə vergiyə cəlb edilə bilər; və ya

(b) Əgər o, cari vergi ilində başlayan və ya başa çatan istənilən on iki aylıq dövr ərzində ümumilikdə 183 günə bərabər və ya ondan artıq bir dövr və ya dövrlər ərzində Razılığa gələn digər Dövlətdə qalırsa; bu halda gəlirin yalnız həmin digər Dövlətdə həyata keçirilən fəaliyyətdən əldə edilən hissəsi həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. "Peşəkar xidmətlər" termininə xüsusilə müstəqil elmi, ədəbi, artistlik, təhsil və ya tədris fəaliyyəti ilə yanaşı, həkimlərin, hüquqşünasların, mühəndislərin, memarların, stomatoloqların, mühasiblərin və auditorların müstəqil fəaliyyəti daxildir.

## Maddə 15
## MUZDLU İŞDƏN ƏLDƏ OLUNAN GƏLİR

1. 16, 18 və 19-cu maddələrin müddəaları nəzərə alınmaqla, Razılığa gələn Dövlətin rezidenti tərəfindən muzdlu işlə bağlı əldə olunan maaş, əmək haqqı və digər oxşar mükafatlar yalnız həmin Dövlətdə vergiyə cəlb edilir, bir şərtlə ki, muzdlu iş Razılığa gələn digər Dövlətdə həyata keçirilməsin. Əgər muzdlu iş Razılığa gələn digər Dövlətdə həyata keçirilirsə, onunla bağlı orada əldə olunan bu cür mükafatlar həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. 1-ci bəndin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin rezidenti tərəfindən Razılığa gələn digər Dövlətdə həyata keçirilən muzdlu işlə bağlı əldə olunan mükafat yalnız adı birinci çəkilən Dövlətdə vergiyə cəlb edilir, əgər:

(a) resipient digər Dövlətdə cari vergi ilində başlayan və ya başa çatan istənilən 12 (on iki) aylıq dövr ərzində ümumilikdə 183 gündən artıq olmayan bir dövr və ya dövrlər ərzində qalırsa, və

(b) mükafat digər Dövlətin rezidenti olmayan işəgötürən tərəfindən və ya onun adından ödənilirsə, və

(c) mükafatların ödənilməsi üzrə xərclər işəgötürənin digər Dövlətdə sahib olduğu daimi nümayəndəlik və ya daimi baza tərəfindən çəkilmirsə.

3. Bu maddənin əvvəlki müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən beynəlxalq daşımalarda istismar edilən dəniz və ya hava gəmisinin göyərtəsində həyata keçirilən muzdlu işlə bağlı əldə olunan mükafatlar həmin Dövlətdə vergiyə cəlb edilə bilər.

## Maddə 16
## DİREKTORLARIN QONORARLARI

Razılığa gələn Dövlətin rezidenti tərəfindən Razılığa gələn digər Dövlətin rezidenti olan şirkətin direktorlar şurasının, müşahidə şurasının və ya auditorlar şurasının, yaxud digər oxşar orqanının üzvü qismində əldə edilən qonorarlar və digər oxşar ödənişlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

## Maddə 17
## İNCƏSƏNƏT XADİMLƏRİ VƏ İDMANÇILAR

1. 14 və 15-ci maddələrin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin rezidenti tərəfindən teatr, kino, radio və ya televiziya artisti və ya musiqiçi qismində Razılığa gələn digər Dövlətdə həyata keçirilən incəsənət xadimi və ya idmançı kimi fərdi fəaliyyətdən əldə edilən gəlir həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Əgər, incəsənət xadimi və ya idmançının bu cür şəxs kimi fərdi fəaliyyəti ilə bağlı gəlir incəsənət xadimi və ya idmançının özünə deyil, digər şəxsə hesablanırsa, həmin gəlir, 7, 14 və 15-ci maddələrin müddəalarından asılı olmayaraq, incəsənət xadimi və ya idmançının fəaliyyətinin həyata keçirildiyi Razılığa gələn Dövlətdə vergiyə cəlb edilə bilər.

3. Bu maddənin 1 və 2-ci bəndlərinin müddəalarından asılı olmayaraq, bu maddədə göstərilən gəlir incəsənət xadimi və ya idmançının fəaliyyətinin həyata keçirildiyi Razılığa gələn Dövlətdə vergidən azad edilir, bir şərtlə ki, həmin fəaliyyət və ya onun böyük hissəsi bu və ya digər Dövlətin dövlət vəsaitləri hesabına maliyyələşdirilsin, yaxud Razılığa gələn Dövlətlər arasında mədəni müqavilə və ya razılaşma çərçivəsində həyata keçirilsin. Bu halda, gəlir yalnız incəsənət xadimi və ya idmançının rezident olduğu Dövlətdə vergiyə cəlb edilə bilər.

## Maddə 18
## TƏQAÜDLƏR

1. 19-cu maddənin 2-ci bəndinin müddəaları nəzərə alınmaqla, Razılığa gələn Dövlətin rezidentinə keçmişdəki muzdlu işlə bağlı ödənilən təqaüdlər və digər oxşar mükafatlar yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

2. Əgər resipient rezident olduğu Dövlətdə həmin Dövlətin qanunvericiliyinə müvafiq olaraq bu cür gəlirə münasibətdə vergiyə cəlb edilmirsə, 1-ci bəndin müddəaları tətbiq edilmir. Bu halda həmin gəlir yarandığı Dövlətdə vergiyə cəlb edilir.

## Maddə 19
## DÖVLƏT QULLUĞU

1. (a) Razılığa gələn Dövlət və ya onun siyasi yaxud inzibati-ərazi bölməsi və ya yerli hakimiyyət orqanı tərəfindən fiziki şəxsə, həmin Dövlətə və ya bölməyə, yaxud hakimiyyət orqanına göstərilən xidmətlərlə bağlı ödənilən maaş, əmək haqqı və digər oxşar mükafatlar yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

(b) Bununla belə, əgər xidmətlər Razılığa gələn digər Dövlətdə göstərilirsə və fiziki şəxs həmin Dövlətin rezidentidirsə və o:

(i) həmin Dövlətin milli şəxidirsə; və ya

(ii) yalnız qulluq göstərmək məqsədi üçün həmin Dövlətin rezidenti olmamışdırsa,

bu cür maaş, əmək haqqı və digər oxşar mükafatlar yalnız Razılığa gələn digər Dövlətdə vergiyə cəlb edilir.

2. (a) Razılığa gələn Dövlət və ya onun siyasi yaxud inzibati-ərazi bölməsi və ya yerli hakimiyyət orqanı tərəfindən və ya onlar tərəfindən yaradılmış fondlardan fiziki şəxsə, həmin Dövlətə və ya bölməyə, yaxud hakimiyyət orqanına göstərilən xidmətlərlə bağlı ödənilən istənilən təqaüd yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

(b) Bununla belə, əgər fiziki şəxs Razılığa gələn digər Dövlətin rezidenti və milli şəxsidirsə, bu cür təqaüd yalnız həmin digər Dövlətdə vergiyə cəlb edilir.

3. 15, 16, 17 və 18-ci maddələrin müddəaları Razılığa gələn Dövlətin və ya onun siyasi yaxud inzibati-ərazi bölməsinin və ya yerli hakimiyyət orqanının sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı göstərilən xidmətlərlə əlaqədar ödənilən maaş, əmək haqqı, təqaüd və digər oxşar mükafatlara tətbiq edilir.

## Maddə 20
## TƏLƏBƏLƏR VƏ TƏCRÜBƏ KEÇƏN ŞƏXSLƏR

Razılığa gələn Dövlətin rezidenti olan və ya Razılığa gələn digər Dövlətə gəlməzdən bilavasitə əvvəl adı birinci çəkilən Dövlətin rezidenti olmuş və həmin digər Dövlətdə yalnız təhsil və ya təlim almaq məqsədilə olan tələbələrin və ya təcrübə keçən şəxslərin yaşamaq, təhsil və ya təlim almaq məqsədilə aldıqları ödənişlər həmin digər Dövlətdə vergiyə cəlb edilmir, bir şərtlə ki, bu cür ödənişlərin mənbəyi həmin digər Dövlətdən kənarda olsun.

## Maddə 21
## DİGƏR GƏLİRLƏR

1. Razılığa gələn Dövlətin rezidentinin, barəsində bu Konvensiyanın əvvəlki maddələrində söhbət açılmayan gəlir növləri, yaranma mənbəyindən asılı olmayaraq yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

2. 1-ci bəndin müddəaları, 6-cı maddənin 2-ci bəndinə əsasən müəyyən edilmiş daşınmaz əmlakdan əldə olunan gəlirlərdən fərqli olan digər gəlirlərə, bu gəlirlərin resipienti Razılığa gələn Dövlətin rezidenti olmaqla sahibkarlıq fəaliyyətini Razılığa gələn digər Dövlətdə orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirdiyi və ya orada yerləşən daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərdiyi və gəlirin ödənilməsi ilə bağlı olan hüquq və ya əmlakın bu cür daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəli olduğu halda tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, 7-ci və ya 14-cü maddələrin müddəaları tətbiq edilir.

## Maddə 22
## ƏMLAK

1. 6-cı maddədə qeyd edilmiş, Razılığa gələn Dövlətin rezidentinə məxsus olan və Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakla ifadə olunmuş əmlak həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdə sahib olduğu daimi nümayəndəliyinin kommersiya əmlakının bir hissəsini təşkil edən daşınan əmlakla və ya Razılığa gələn Dövlətin rezidentinin müstəqil fərdi xidmətlər göstərmək məqsədi üçün Razılığa gələn digər Dövlətdə sərəncamında olan daimi bazaya aid daşınan əmlakla ifadə olunmuş əmlak həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

3. Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən beynəlxalq daşımalarda istismar edilən dəniz və ya hava gəmiləri və ya onların istismarı ilə bağlı olan daşınan əmlakla təmsil olunmuş əmlak yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

4. Razılığa gələn Dövlətin rezidentinin bütün digər əmlak elementləri yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

## Maddə 23
## İKİQAT VERGİTUTMANIN ARADAN QALDIRILMASI

1. İkiqat vergitutmanın qarşısı bu maddənin aşağıdakı bəndlərinin müddəalarına əsasən alınır.

2. Azərbaycanda ikiqat vergitutmanın qarşısı aşağıdakı qaydada alınır:
Əgər Azərbaycan rezidenti bu Konvensiyanın müddəalarına müvafiq olaraq San Marinoda vergiyə cəlb edilə bilən gəlir əldə edirsə və ya əmlaka sahibdirsə, həmin şəxs tərəfindən həmin gəlirə və ya əmlaka görə San Marinoda ödənilmiş vergi Azərbaycanda bu həmin gəlirə və ya əmlaka görə tutulan verginin məbləğindən çıxılır. Bununla belə, bu cür çıxılma Azərbaycanın qanunvericiliyinə və vergitutma qaydalarına müvafiq olaraq bu cür gəlirə və ya əmlaka hesablanmış verginin məbləğindən artıq olmamalıdır.

3. San Marinoda:
a) Əgər San Marino rezidenti bu Konvensiyanın müddəalarına müvafiq olaraq Azərbaycanda vergiyə cəlb edilə bilən gəlir əldə edirsə, San Marino həmin gəliri b) və c) altbəndlərinin müddəalarına müvafiq olaraq San Marinoda vergidən azad edir, lakin, həmin rezidentin yerdə qalan gəlirinə vergi hesablayarkən, sözügedən gəlir vergidən azad edilmədiyi halda tətbiq edilə biləcək vergi dərəcəsini tətbiq edə bilər.

b) Əgər San Marino rezidenti 10-cu, 11-ci və 12-ci maddənin müddəalarına müvafiq olaraq Azərbaycanda vergiyə cəlb edilə bilən gəlir əldə edirsə, San Marino həmin rezidentin gəlir vergisindən Azərbaycanda ödənilmiş vergi məbləğinə bərabər məbləğin çıxılmasına icazə verir. Bununla belə, bu cür çıxılma həmin çıxılma verilməzdən əvvəl Azərbaycanda əldə edilmiş gəlirə aid edilə bilən gəlir vergisi hissəsindən artıq olmamalıdır.

## Maddə 24
## DİSKRİMİNASİYAYA YOL VERİLMƏMƏSİ

1. Razılığa gələn Dövlətin milli şəxsləri Razılığa gələn digər Dövlətdə həmin digər Dövlətin milli şəxslərinin eyni şəraitdə, xüsusilə rezidentliyə münasibətdə, cəlb edildiyi və ya cəlb edilə biləcəyi vergitutma və ya bununla bağlı olan öhdəliklərdən fərqli və ya daha ağır olan vergitutma və ya bununla bağlı olan öhdəliklərə məruz qalmır. Bu müddəa, 1-ci maddənin müddəalarından asılı olmayaraq, həmçinin Razılığa gələn Dövlətlərdən birinin və ya hər ikisinin rezidenti olmayan şəxslərə də tətbiq edilir.

2. Razılığa gələn Dövlətin rezidenti olan vətəndaşlığı olmayan şəxslər Razılığa gələn Dövlətlərdən heç birində həmin Dövlətin milli şəxslərinin eyni şəraitdə, xüsusilə rezidentliyə münasibətdə, cəlb edildiyi və ya cəlb edilə biləcəyi vergitutma və ya bununla bağlı olan öhdəliklərdən fərqli və ya daha ağır olan vergitutma və ya bununla bağlı olan öhdəliklərə cəlb edilmir.

3. Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdə sahib olduğu daimi nümayəndəliyinin vergiyə cəlb edilməsi həmin digər Dövlətdə həmin digər Dövlətin eyni fəaliyyətlə məşğul olan müəssisələrinin vergiyə cəlb edilməsindən az əlverişli olmamalıdır. Bu müddəa, Razılığa gələn Dövlətin üzərinə onun öz rezidentlərinə mülki status və ya ailə öhdəlikləri nəzərə alınmaqla verdiyi verigitutma məqsədləri üçün hər hansı şəxsi imtiyazların, güzəştlərin və çıxılmaların Razılığa gələn digər Dövlətin rezidentlərinə də verilməsi öhdəliyinin qoyulması kimi təfsir edilmir.

4. 9-cu maddənin 1-ci bəndinin, 11-ci maddənin 7-ci bəndinin və ya 12-ci maddənin 6-cı bəndinin müddəalarının tətbiq edildiyi hallar istisna edilməklə, Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən faizlər, royaltilər və digər ödənişlər, bu cür müəssisənin vergiyə cəlb edilməli olan mənfəətinin müəyyən edilməsi məqsədilə adı birinci çəkilən Dövlətin rezidentinə ödənildiyi halda tətbiq olunan eyni şərtlər əsasında çıxılmır. Eynilə, Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətin rezidentinə olan hər hansı bir borcu, həmin müəssisənin vergiyə cəlb edilməli olan kapitalının müəyyən edilməsi məqsədilə adı birinci çəkilən Dövlətin rezidentinə olan borc kimi eyni şərtlər əsasında çıxılır.

5. Razılığa gələn Dövlətin, əmlakı tamamilə və ya qismən Razılığa gələn digər Dövlətin rezidentinə və ya rezidentlərinə məxsus olan və ya onların birbaşa və ya dolayı nəzarəti altında olan müəssisəsi adı birinci çəkilən Dövlətdə həmin Dövlətin digər oxşar müəssisələrinin cəlb edildiyi və ya cəlb edilə biləcəyi vergitutma və ya bununla bağlı olan öhdəliklərdən fərqli və ya daha ağır olan vergitutma və ya bununla bağlı olan öhdəliklərə cəlb edilə bilməz.

6. Bu maddənin müddəaları, 2-ci maddənin müddəalarından asılı olmayaraq, istənilən növlü və xarakterli vergilərə tətbiq edilir.

## Maddə 25
## QARŞILIQLI RAZILIQ PROSEDURU

1. Əgər hər hansı şəxs Razılığa gələn Dövlətlərdən birinin və ya hər ikisinin hərəkətlərinin onun bu Konvensiyanın müddəalarına uyğun olmayan tərzdə vergiyə cəlb edilməsinə

gətirib çıxardığını və ya gətirib çıxaracağını zənn edirsə, həmin şəxs, həmin Dövlətlərin daxili qanunvericiliklərində nəzərdə tutulmuş müdafiə vasitələrindən asılı olmayaraq, bu işlə bağlı rezident olduğu Razılığa gələn Dövlətin və ya bu hal 24-cü maddənin 1-ci bəndinin əhatə dairəsinə aiddirsə, milli şəxsi olduğu Razılığa gələn Dövlətin səlahiyyətli orqanlarına müraciət edə bilər. Müraciət, bu Konvensiyanın müddəalarına uyğun olmayan vergitutmaya gətirib çıxaran hərəkətlər haqqında ilk məlumat tarixindən etibarən üç il ərzində təqdim edilməlidir.

2. Əgər, səlahiyyətli orqan etirazı əsaslandırılmış hesab edərək, eyni zamanda, qənaətbəxş qərara gələ bilmirsə, bu Konvensiyanın müddəalarına uyğun olmayan vergitutmanın qarşısının alınması məqsədilə məsələni Razılığa gələn digər Dövlətin səlahiyyətli orqanı ilə qarşılıqlı razılıq yolu ilə həll etməyə səy göstərir. Əldə edilmiş hər hansı bir razılıq, Razılığa gələn Dövlətin daxili qanunvericiliyində nəzərdə tutulmuş hər hansı zaman məhdudiyyətlərindən asılı olmayaraq həyata keçirilir.

3. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu Konvensiyanın təfsiri və ya tətbiqi ilə bağlı meydana çıxan bütün çətinlikləri və ya şübhələri qarşılıqlı razılıq yolu ilə həll etməyə səy göstərirlər. Onlar, həmçinin bu Konvensiyada nəzərdə tutulmamış hallarda ikiqat vergitutmanın aradan qaldırılması üçün bir-biri ilə məsləhətləşmələr apara bilərlər.

4. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları, əvvəlki bəndlərin anlaşılmasında razılığın əldə edilməsi məqsədilə bir-biri ilə birbaşa, o cümlədən onların özləri və ya nümayəndələrindən ibarət olan birgə komissiya vasitəsilə əlaqələr yarada bilərlər.

5.Əgər,

a) birinci bəndin müddəalarına uyğun olaraq, şəxs Razılığa gələn Dövlətlərdən birinin və ya hər ikisinin hərəkətləri şəxsin bu Konvensiyanın müddəalarına uyğun olmayan vergiyə cəlb edilməsi ilə nəticələndiyi halda, Razılığa gələn Dövlətin səlahiyyətli orqanına müraciət edirsə, və

b) səlahiyyətli orqanlar 2-ci bəndə uyğun olaraq Razılığa gələn digər Dövlətə həmin müraciətin göndərildiyi andan 2 il müddətinə razılığa gələ bilmirsə, şəxsin müraciəti ilə arbitraja göndərilə bilər. Əgər bu məsələlərlə bağlı hər bir Dövlətin məhkəməsi və ya inzibati tribunalı artıq qərar veribsə, bu məsələlər arbitraja göndərilə bilməz. Müraciət ilə əhatə olunan birbaşa şəxs arbitraj qərarının tətbiqi ilə bağlı qarşılıqlı razılaşmanı qəbul etmədiyi təqdirdə, Razılığa gələn Dövlətlərin daxili qanunvericiliklərində məhdudiyyətlərin olmasına baxmayaraq, qərar hər iki dövlət üçün məcburidir və tətbiq edilməlidir. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu bəndin tətbiqi üsulunu qarşılıqlı razılaşma yolu ilə müəyyən edir.

## Maddə 26
## MƏLUMAT MÜBADİLƏSİ

1. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu Konvensiyanın müddəalarının yerinə yetirilməsi və ya Razılığa gələn Dövlətlər və ya onların inzibati-ərazi bölmələri və ya yerli hakimiyyət orqanları tərəfindən tutulan istənilən növlü və xarakterli vergilərlə bağlı daxili qanunvericiliklərin inzibatçılığı və tətbiqi üçün aidiyyəti olacağı hesab edilən olan məlumat mübadiləsi həyata keçirirlər, bir şərtlə ki, həmin qanunvericilikdə nəzərdə

tutulmuş vergitutma bu Konvensiyaya zidd olmasın. Məlumat mübadiləsi 1-ci və 2-ci maddələrlə məhdudlaşmır.

2. Razılığa gələn Dövlət tərəfindən 1-ci bəndə müvafiq olaraq əldə edilmiş hər hansı məlumat, həmin Dövlətin daxili qanunvericiliyi əsasında əldə edilmiş informasiyaya tətbiq edilən eyni qayda əsasında sirr hesab edilir və yalnız 1-ci bənddə göstərilən vergilərin hesablanması və ya toplanması, məcburi alınması və ya prosessual qaydada təqib edilməsi, yaxud həmin vergilərlə bağlı şikayətlərə baxılması, və ya yuxarıda göstərilənlərə nəzarət ilə məşğul olan şəxslərə və ya orqanlara (o cümlədən, məhkəmələrə və inzibati orqanlara) açıqlanır. Bu şəxslər və ya orqanlar həmin məlumatdan yalnız bu cür məqsədlər üçün istifadə edirlər. Onlar bu məlumatı açıq məhkəmə prosesi və ya məhkəmə qərarlarında açıqlaya bilərlər.

3. Heç bir halda, 1 və 2-ci bəndlərin müddəaları Razılığa gələn Dövlətlərin üzərinə aşağıdakı öhdəliklərin qoyulması kimi şərh edilmir:

a) bu və ya digər Razılığa gələn Dövlətin qanunvericiliyində və inzibati təcrübəsində nəzərdə tutulmuş tədbirlərdən fərqli olan inzibati tədbirlər həyata keçirmək;
b) bu və ya digər Razılığa gələn Dövlətin qanunvericiliyi və ya adi inzibatçılığı əsasında əldə edilməsi mümkün olmayan məlumat təqdim etmək;
c) hər hansı ticarət, sahibkarlıq, sənaye, kommersiya və ya peşə sirrini, yaxud ticarət prosesini aça biləcək məlumat və ya açılması dövlət siyasətinə zidd olan məlumat təqdim etmək.

4. Əgər Razılığa gələn Dövlət tərəfindən bu maddəyə müvafiq olaraq məlumat əldə edilməsi üçün sorğu verilirsə, Razılığa gələn digər Dövlət, hətta öz vergi məqsədləri üçün bu məlumata ehtiyacı olmadıqda belə, sorğu edilmiş məlumatın əldə edilməsi üçün özünün məlumat əldə etmə vasitələrindən istifadə edəcəkdir. Əvvəlki cümlədə göstərilmiş öhdəlik 3-cü bəndin məhdudiyyətlərinə tabedir, lakin, bu məhdudiyyətlər Razılığa gələn Dövlətə hər-hansı məlumatın əldə edilməsində özünün marağı olmaması səbəbindən həmin məlumatın təqdim edilməsindən imtina etməyə imkan verilməsi kimi təfsir edilmir.

5. Heç bir halda 3-cü bəndin müddəaları Razılığa gələn Dövlətə məlumat verilməsindən sadəcə olaraq həmin məlumatın bank, digər maliyyə institutu, səlahiyyət verilmiş şəxs və ya agent, yaxud etibar edilmiş şəxs qismində çıxış edən şəxsdə olması və ya hər hansı şəxsdəki mülkiyyət maraqları ilə əlaqəli olması səbəbindən imtina etmək hüququ kimi təfsir edilmir.

## Maddə 27
## DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏR VƏ KONSULLUQ İDARƏLƏRİNİN ÜZVLƏRİ

Bu Konvensiyanın heç bir müddəası diplomatik nümayəndəliklərin və ya konsulluq idarələrinin üzvlərinin beynəlxalq hüququn normalarına və ya xüsusi müqavilələrə əsasən müəyyən edilmiş vergi imtiyazlarına toxunmur.

## Maddə 28
## GERİ QAYTARILMA

1. Razılığa gələn Dövlət tərəfindən mənbədə tutulan vergi yolu ilə toplanmış vergi, həmin verginin tutulması hüququ bu Konvensiyanın müddəalarına müvafiq olaraq məhdudlaşdırıldığı halda maraqlı tərəfin müraciəti əsasında geri qaytarılır.

2. Geri qaytarılma barədə müraciətlər geri qaytarmanı həyata keçirməli olan Razılığa gələn Dövlətin qanunları ilə müəyyənləşdirilmiş müddətlər çərçivəsində edilməli və həmin Razılığa gələn Dövlətin vergilərin qaytarılması haqqında qaydalarında nəzərdə tutulan sənədlərlə müşaiyət edilməlidir.

3. Əvvəlki bənddə göstərilən qaydaların tələb etdiyi halda, geri qaytarılma müraciətini müşaiyət edən və vergi ödəyicisinin Konvensiyanın üstünlüklərindən yararlanmaq üçün tələblərə cavab verdiyini təsdiq edən sənədlər həmin vergi ödəyicisinin rezident olduğu Razılığa gələn Dövlətin səlahiyyətli orqanı tərəfindən müvafiq qaydada təsdiqlənir.

4. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları zəruri olduğu hallarda bu Konvensiyanın 25-ci maddəsinin müddəalarına əsasən qarşılıqlı razılaşma yolu ilə bu maddənin tətbiqi qaydalarını müəyyən edirlər.

## Maddə 29
## GÜZƏŞTLƏRİN MƏHDUDLAŞDIRILMASI

1. Bu Konvensiyanın hər hansı digər müddəalarından asılı olmayaraq, əgər Razılığa gələn Dövlətin rezidentin və ya onunla bağlı olan istənilən şəxsin yaradılmasının və ya mövcudluğunun əsas məqsədi və ya əsas məqsədlərindən biri bu Konvensiyanın verdiyi və başqa hallarda əldə edilməsi mümkün olmayan faydalardan yararlanmaqdırsa, bu halda həmin rezident Razılığa gələn digər Dövlət tərəfindən bu Konvensiya ilə verilmiş hər hansı güzəşt və ya azadolmalardan faydalanmayacaqdır.

2. Razılığa gələn Dövlətin müəssisəsinin və Razılığa gələn digər Dövlətdə yerləşən müəssisələrin yaradılmasının və ya onlar arasındakı əməliyyatların əsas məqsədi və ya əsas məqsədlərindən biri bu Konvensiyanın verdiyi və başqa hallarda əldə edilməsi mümkün olmayan faydalardan yararlanmaqdırsa, bu Konvensiyanın heç bir müddəası vergilərin ödənilməsindən yayınma və vergidən boyun qaçırmanın qarşısının alınması haqqında daxili qanunvericiliyin bu müəssisələr arasında aparılan əməliyyatlarda yaranan xərclərin və istənilən digər çıxılmaların məhdudlaşdırılması haqqında müddəalarının tətbiqinə təsir etmir.

3. Bu Konvensiyanın müddəaları Razılığa gələn Dövlətin və ya Razılığa gələn digər Dövlətin qanunlarına və ya inzibati təcrübəsinə əsasən xüsusi vergi rejimindən faydalan müəssisələrə tətbiq edilmir. Eynilə, bu cür müddəalar Razılığa gələn digər Dövlətin rezidentinin həmin şirkətlərdən əldə etdiyi gəlirə və ya həmin rezidentin bu şirkətlərin kapitalında olan səhmlərinə və ya digər korporativ hüquqlarına münasibətdə tətbiq edilmir.

## Maddə 30
## DƏYİŞİKLİKLƏR VƏ ƏLAVƏLƏR

Razılığa gələn Dövlətlərin qarşılıqlı razılığı ilə bu Konvensiyaya onun ayrılmaz tərkib hissəsi hesab edilən və bu Konvensiyanın 31-ci maddəsinin müddəalarına müvafiq qaydada qüvvəyə minən ayrıca Protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

## Maddə 31
## QÜVVƏYƏ MİNMƏ

Razılığa gələn Dövlətlərin hər biri Razılığa gələn digər Dövlətə özünün bu Konvensiyanın qüvvəyə minməsi üçün tələb olunan dövlətdaxili prosedurlarının tamamlanması barədə bildiriş göndərir. Bu Konvensiya həmin bildirişlərdən sonuncusunun tarixində qüvvəyə minir. Bundan sonra Konvensiyanın müddəaları aşağıdakılara münasibətdə tətbiq edilir:

(a) mənbədə tutulan vergilərə münasibətdə, Konvensiyanın qüvvəyə mindiyi ildən sonrakı təqvim ilinin 1 yanvar tarixində və ya ondan sonra ödənilən məbləğlərə;

(b) digər gəlir və əmlak vergilərinə münasibətdə, Konvensiyanın qüvvəyə mindiyi ildən sonrakı təqvim ilinin 1 yanvar tarixində və ya ondan sonra başlanan vergitutma dövrləri üzrə tutulan vergilərə.

## Maddə 32
## LƏĞVETMƏ

Bu Konvensiya Razılığa gələn Dövlətlərdən hər hansı biri tərəfindən onun qüvvəsi ləğv edilənədək qüvvədə qalır. Razılığa gələn Dövlətlərdən hər biri bu Konvensiyanın qüvvəyə mindiyi tarixdən azı 5 il sonra hər hansı təqvim ilinin başa çatmasına ən azı altı ay qalmış diplomatik kanallar vasitəsilə qüvvədən düşmə haqqında yazılı bildiriş təqdim etməklə, Konvensiyanı ləğv edə bilər. Bu halda, bu aşağıdakılara münasibətdə ləğv edilmiş sayılır:

(a) mənbədə tutulan vergilərə münasibətdə - bildirişin təqdim edildiyi ildən sonrakı təqvim ilinin 1 yanvar tarixində və ya ondan sonra ödənilən məbləğlərə;

(b) digər gəlir və əmlak vergilərinə münasibətdə - bildirişin təqdim edildiyi ildən sonrakı təqvim ilinin 1 yanvar tarixində və ya ondan sonra başlanan hər hansı vergitutma dövrləri üzrə tutulan vergilərə.

Bunun təsdiqi olaraq, müvafiq qaydada səlahiyyətləndirilmiş aşağıda imza edən şəxslər bu Konvensiyanı imzaladılar.

Bu Konvensiya Bakı şəhərində 8 sentyabr 2015-ci il tarixində, iki nüsxədə, hər biri Azərbaycan, italyan və ingilis dillərində olmaqla imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Konvensiyanın təfsirində fikir ayrılığı yaranacağı təqdirdə, ingilis dilindəki mətnə üstünlük veriləcəkdir.

| **Azərbaycan Respublikası Hökuməti adından** | **San Marino Respublikas Hökuməti adından** |
|---|---|

**AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ**
**VƏ**
**SAN MARİNO RESPUBLİKASI HÖKUMƏTİ**
**ARASINDA**

**GƏLİRLƏRƏ VƏ ƏMLAKA GÖRƏ VERGİLƏRƏ MÜNASİBƏTDƏ**
**İKİQAT VERGİTUTMANIN ARADAN QALDIRILMASI HAQQINDA**

# KONVENSİYANIN PROTOKOLU

Azərbaycan Respublikası Hökuməti və San Marino Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında Konvensiya imzalanan zaman Konvensiyanın tərkib hissəsini təşkil edən aşağıdakı əlavə müddəalar barədə razılığa gəlinmişdir:

Belə başa düşülür ki:

1. 3-cü maddənin 1-ci bəndinin e) altbəndi ilə bağlı, San Marinoya münasibətdə trasta yalnız San Marinoda gəlir vergisinə cəlb olunduğu təqdirdə, vergi məqsədləri üçün korporativ qurum kimi baxılır.

2. 5-ci maddənin 2-ci bəndi ilə bağlı, "daimi nümayəndəlik" anlayışı serveri də ehtiva edə bilər.

3. Müəssisənin üzərinə öhdəlik qoyan tərzdə müqavilənin bütün elementləri və təfərrüatları barədə danışıqlar aparmaq səlahiyyəti olan şəxs, müqavilə müəssisənin yerləşdiyi Razılığa gələn Dövlətdə başqa şəxs tərəfindən imzalandığı halda belə, Razılığa gələn digər Dövlətdə bu səlahiyyəti həyata keçirən şəxs hesab edilə bilər.

Bunun təsdiqi olaraq, iki Razılığa gələn Dövlətin müvafiq qaydada səlahiyyətləndirilmiş nümayəndələri bu Protokolu imzalamışlar.

Bunun təsdiqi olaraq, müvafiq qaydada səlahiyyətləndirilmiş aşağıda imza edən şəxslər bu Protokolu imzaladılar.

Bu Protokol Bakı şəhərində 8 sentyabr 2015-ci il tarixində, iki nüsxədə, hər biri Azərbaycan, italyan və ingilis dillərində olmaqla imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Konvensiyanın təfsirində fikir ayrılığı yaranacağı təqdirdə, ingilis dilindəki mətnə üstünlük veriləcəkdir.

| | |
|---|---|
| **Azərbaycan Respublikası Hökuməti adından** | **San Marino Respublikas Hökuməti adından** |